# Uca məqamın mübarək, şəhidim!

**Deyirlər ki, oktyabr ayının 11-də toyun olacaqmış. Hər cür tədarük də görülübmüş. Sən də təbii ki, o günü səbirsizliklə gözləyirdin. Yəni oktyabr sənin taleyinə əlamətdar bir ay kimi yazılacaqdı. Yazıldı da. Amma səni tanıyanın da, tanımayanın da ürəklərini göynədən baş tutmayan toyunla yox. Oktyabrda sənin ən ali məqama- şəhidlik zirvəsinə ucalmağının 40-cı günü tamam oldu, Hüseyn! ...Saraydakı mərasim evinə gələnlərin ardı-arası kəsilmirdi. Hamı– məktəbli də, müəllim də, əliqabarlı fəhlə də, vəzifəli şəxs də sənin bu mübarək gününə yığışmağı özü üçün vicdan borcu sayırdı.**

Deyilən bütün sözlərin, təriflərin ünvanı sən idin– şəhid Hüseyn Abbasqulu oğlu Nəcəfzadə. Müqəddəs ruhunun hamımızdan min qat ucada durduğu məclisində şəhidələr haqqında və xüsusən də sənin haqqında danışıldı, ehtiram bildirildi.

Hərbçi yoldaşların da gəlmişdilər, sənin necə qorxubilməz, mərd olmağından danışdılar. Danışdıqca da təsirləndilər, sanki ruhun qarşısında hesabat verirlərmiş kimi. Onlar da sənin kimi torpaq uğrunda gözlərini qırpmadan canlarından keçməyə hazır olduqlarını bildirdilər. Azərbaycan hərbçisi 2020-ci ilin elə bu vaxtlarında bir daha sübut etdi ki, o, öz sözünün ağasıdır.

Sən məni tanımırsan. Çünki bu fani dünyada hec vaxt rastlaşmamışıq. Yəqin ki heç o biri dünyada da səninlə görüşmək imkanım olmayacaq, çünki siz şəhidlərin qərar tutduğunuz məqama əl çatdırmaq bizlərin başı üçün deyil. 40 gün bundan əvvələdək səni də doğmalarından, əzizlərindən, dostlarından və bir də zabit yoldaşlarından və çiyin-çiyinə döyüşdüyün əsgərlərindən savayı, çoxu tanımırdı. Ancaq bir anın icərisində hamı səni tanıdı, hamı səni tanımağa borclu olduğunu və bu borcdan heç vaxt çıxa bilməyəcəyini anladı.

Sən bir anın içərisində çoxlarının statusunu dəyişdin, cənab baş leytenant. Sayəndə atan şəhid atası, anan şəhid anası oldu, intizarla yolunu gözləyən, qapınıza telli-duvaqlı gəlin kimi gəlməyi azı yüz dəfə xəyalında canlandıran nişanlını da şəhid nişanlısı statusuna qovuşdurdun.

Hə, onu da deyim, bil: məclisdə atan Abbas-



qulunun necə qürurlanmağından, fəxarətindən də danışdılar. Bəs necə, sənin kimi oğulun atası belə olmalıdı. Necə ki onun kimi atanın oğlu sənsən, qəhrəman.

Mən də sənin müqəddəs məqama qovuşmağının 40-cı günündə iştirak etməyə gəlmişdim. Gəlmişdim ki, iki il bundan əvvəl, torpaqlarımızın sənin kimi qəhrəmanlarımız sayəsində mənfur düşmən tapdağından azad olunması sevincini atan Abbasqulu və qohumlarınla bölüşüm.

...Ən yaxın qohumlarından olan Hacı dayının evində yığışmışdıq. Məclisimizdə atan varıydı, Hacı dayı varıydı, onun oğlu Hacı Kamran varıydı, dostumuz Elnur varıydı, bir də mən varıydım. Atan çox sevinirdi, həm də ürəkdən sevinirdi. Elə o ürəkdən sevindyi halı ilə də həkk olmuşdu yaddaşıma və qəlbimə. Onda deyəsən sən hələ rütbəcə leytenant idin. Kamran səni nəzərdə tutaraq deyirdi ki, ay seyid, əmoğlu siz tərəflərdədir, oraları bilirsən necə tərifləyir, deyir ki, elə bil cənnətdir.

İki il sanki bir göz qırpımı kimi keçdi, cənab baş letenant. Rastlaşdığım xəbərlərdən yenə iki Azərbaycan hərbçisinin şəhid olduğu xəbərini oxuyanda diqqətimi "Saray kənd"i, "Abbasqulu oğlu", "baş leytenant" sözləri çəkdi. Ürəyimə damdı ki, bu Abbasqulu elə həmən Abbasquludur.

Ancaq inanmağa cəsarətim çatmadı, axı bizlər sizin kimi deyilik. Aradan bir neçə gün keçəndən sonra Elnurun zəngi gəldi, təccübünü gizlətməyərək soruşdu ki, nə əcəb xəbərin yoxdu, qonşumuz Abbasqulunun oğlu şəhid oldu.

Nə deyə bildim ki, xəbərim var, nə də "xəbərim yoxdur" yalanını bacarmadım, sadəcə olaraq heyfsiləndim, göynədim. Cəsarətsizliyimə görə özümü qınadım da. Elə bugünkü məclisdə də özümü toparlayıb atanla görüşməyə ürək etmədiyimə görə qınadığım kimi.

O, yəqin bağışlayar.

Mən ona "başın sağ olsun" deyə bilmərəm axı. Axı şəhidlər ölmürlər. Axı onlar əbədiyaşardılar- sənin kimi. Əbədilərin isə heç vaxt ölüm tarixi olmur, şəhidim.

Sən hər şeyi dəyişdin, elə rəsmi tərcümeyi halını da. Artıq sən bütün rəsmi tərcümeyi-hallardan qat-qat ucadasan.

**Səməd HÜSEYNOĞLU,**
**"Xalq qəzeti"nin bölgə müxbiri**

Xalq qəzeti .- 2022.- 30 oktyabr.- S.7.